**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 28/15**

**Bakı şəhəri** **04 sentyabr 2024-cü il**

# Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 324s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 20 noyabr tarixli 86/9 nömrəli qərarı ilə təsdiq edilmiş "Endokrin xəstəliklərinə nəzarət haqqında" 16 №-li illik rəsmi statistika hesabatı formasının "2000 Digər endokrin xəstəliklər" cədvəlinin "dərman maddələrinin qəbulu ilə əlaqədar meydana çıxan piylənmə" sətrində "dərman maddələrinin" sözləri "dərman vasitələrinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 1 iyul tarixli 85/14 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz təchizatı müəssisəsinin energetikası haqqında" 4-energetika №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "II bölmə. İstehlakçılara ötürülmələr" bölməsinin 122-ci sətrə dair hissəsində ikinci halda "və" sözü "vasitələrinin, o cümlədən" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 1 iyul tarixli 86/14 nömrəli qərarı ilə təsdiq edilmiş "Neft (qaz) emalı müəssisəsinin energetikası haqqında" 5-energetika №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "II

bölmə. Daxilolmalar, istehsal və ötürülmələr, min ton” bölməsinin 88-ci sətrə dair hissəsində ikinci halda “və” sözü “vasitələrinin, o cümlədən” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 29 oktyabr tarixli 119/11 nömrəli qərarı ilə təsdiq edilmiş “Tibbi tullantıların əmələ gəlməsi və hərəkətinə dair” 1-tibbi tullantılar №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. beşinci hissənin dördüncü abzasında “diaqnostika avadanlıqları” sözləri “diaqnostik tibb vasitələri” sözləri ilə əvəz edilsin;

4.2. altıncı hissənin ikinci abzasında “materiallar və alətlər” sözləri “tibb vasitələri” sözləri ilə əvəz edilsin;

4.3. onuncu hissənin üçüncü cümləsində “müddəti keçmiş dərmanlar və digər əczaçılıq maddələri” sözləri “yararlılıq müddəti bitmiş dərman və tibb vasitələri” sözləri ilə əvəz edilsin;

4.4. on üçüncü hissədə “Farmasevtika məhsullarının, dərman və preparatların” sözləri “Dərman və tibb vasitələrinin” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 30 dekabr tarixli 36/08 nömrəli qərarı ilə təsdiq edilmiş “Qeyri-kommersiya təşkilatlarının maliyyə nəticələri və maliyyə vəziyyəti haqqında” 1-QKT №-li (illik) rəsmi statistika hesabatı formasına əlavə - “Qeyri - kommersiya təşkilatlarının fəaliyyət sahələri” cədvəlinin 02.1-ci sətrində “Dərman, avadanlıq və cihazlarla” sözləri “Dərman və tibb vasitələri ilə” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-cu il 28 dekabr tarixli 36/13 nömrəli qərarı ilə təsdiq edilmiş “Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında” 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı formasına əlavədə aşağıdakı dəyişikliklər edilsin:

6.1. “Pərakəndə satış üzrə malların siyahısı” cədvəlinin “QEYRİ-ƏRZAQ MALLARI üzrə” hissəsinin “47.00.74.10” kod üzrə sətrində “Dərmanların” sözü “Dərman vasitələrinin” sözləri ilə, “47.00.74.90” kod üzrə sətrində “mallarının” sözü “məhsullarının” sözü ilə, “47.00.75.00” kod üzrə sətrində “Tibbi və ortopediya mallarının” sözləri “Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının” sözləri ilə əvəz edilsin;

6.2. “Topdansatış üzrə malların siyahısı” cədvəlinin “QEYRİ-ƏRZAQ MALLARI üzrə” hissəsinin “46.46.11.00” kod üzrə sətrində “mallarının və preparatlarının” sözləri “məhsullarının və dərman vasitələrinin” sözləri ilə, “46.46.12.00” kod üzrə sətrində “Cərrahiyyə, tibb və ortopediya alətlərinin və cihazlarının” sözləri “Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 27 avqust tarixli 17/13 nömrəli qərarı ilə təsdiq edilmiş “Fərdi sahibkarların ticarət fəaliyyəti haqqında” 4-ticarət №-li rüblük rəsmi statistika hesabatı formasına əlavədə aşağıdakı dəyişikliklər edilsin:

7.1. “Pərakəndə satış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı” cədvəlinin “Qeyri-ərzaq malları üzrə” hissəsinin 129-cu sətrində “Dərmanların” sözü “Dərman vasitələrinin” sözləri ilə, 131-ci sətrində “mallarının” sözü “məhsullarının” sözü ilə, 132-ci sətrində “Tibb və ortopediya mallarının” sözləri “Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının” sözləri ilə əvəz edilsin;

7.2. “Topdansatış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı” cədvəlinin “Qeyri-ərzaq malları üzrə” hissəsinin 52-ci sətrində “mallarının və

preparatlarının" sözləri "məhsullarının və dərman vasitələrinin" sözləri ilə, 53-cü sətrində "Cərrahiyyə, tibb və ortopediya alətlərinin və cihazlarının" sözləri "Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının" sözləri ilə əvəz edilsin.

8. "Ev təsərrüfatlarının tədqiqatı üzrə müayinə formalarının və onların doldurulmasına dair göstərişin təsdiq edilməsi və "Ev təsərrüfatları tədqiqatında istifadə olunan dövlət statistika müşahidə formalarının və ev təsərrüfatları tədqiqatının təşkil edilməsi və aparılmasına dair təlimatın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2011-ci il 29 dekabr tarixli 41/3 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 15 dekabr tarixli 29/03 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin qərarla təsdiq edilmiş "Ev təsərrüfatının rüblük xərcləri və gəlirlərinin uçotu" 3-büdcə №-li rüblük müayinə formasının "XI BÖLMƏ. Səhiyyəyə, tibbi ləvazimata və s. çəkilən xərclər, manat" bölməsi üzrə cədvəlin adında "tibbi ləvazimata" sözləri "tibb vasitələrinə" sözləri ilə, 1-ci sətrində "Tibbi ləvazimatın" sözləri "Tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

8.2. həmin qərarla təsdiq edilmiş "Ev təsərrüfatlarının tədqiqatı üzrə müayinə formalarının doldurulmasına dair göstəriş"in 13.7-ci bəndinin adında "tibbi ləvazimata" sözləri "tibb vasitələrinə" sözləri ilə, mətn hissəsində "tibbi ləvazimatların" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 8 iyun tarixli 16/13 nömrəli qərarı ilə təsdiq edilmiş "Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 1-ticarət №-li illik rəsmi statistika hesabatı formasına əlavədə aşağıdakı dəyişikliklər edilsin:

9.1. "Pərakəndə satış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı" cədvəlinin "Qeyri-ərzaq malları üzrə" hissəsinin 129-cu sətrində "Dərmanların" sözü "Dərman vasitələrinin" sözləri ilə, 131-ci sətrində "mallarının" sözü "məhsullarının" sözü ilə, 132-ci sətrində "Tibb və ortopediya mallarının" sözləri "Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının" sözləri ilə əvəz edilsin;

9.2. "Topdansatış üzrə malların Məhsul Növlərinin Təsnifatına uyğun olaraq siyahısı" cədvəlinin "Qeyri-ərzaq malları üzrə" hissəsinin 52-ci sətrində "mallarının və preparatlarının" sözləri "məhsullarının və dərman vasitələrinin" sözləri ilə, 53-cü sətrində "Cərrahiyyə, tibb və ortopediya alətlərinin və cihazlarının" sözləri "Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının" sözləri ilə əvəz edilsin.

10. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

11. Aparatın Sosial statistika, Energetika və ətraf mühit statistikası, Milli hesablar və makroiqtisadi göstəricilər statistikası, Ticarət statistikası və Həyat keyfiyyətinin statistikası şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.

12. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**